# 2016-cı il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## “Təhsil hamı üçün – maneələri yox edək, qapıları açaq”

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) əməkdaşları ESFİDİP TEMPUS “Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” layihəsi çərçivəsində Gəncə Dövlət Universitetində keçirilən konfransda iştirak ediblər.

“Təhsil hamı üçün – maneələri yox edək, qapıları açaq” adlı təbliğat konfransının məqsədi əlilliyi olan şəxslərin ali təhsil müəssisələrinə cəlb edilməsi üçün ictimaiyyətin maarifləndirilməsi olub. Konfransda bu sahədə Avropa təcrübəsinin Azərbaycan universitetlərində tətbiqinin, tələbələrin, müəllimlərin və işçilərin təlimləndirilməsinin əhəmiyyətindən danışılıb. Bildirilib ki, yerli tərəfdaş universitetlərdə “Əlilliyi olan tələbələr üçün mərkəz”lər yaradılmalı və ictimayyət layihə barədə mütəmadi olaraq məlumatlandılmalıdır.

Konfransda layihənin milli tərəfdaşları, o cümlədən Azərbaycan Respublikası Əlil Təşkilatlar İttifaqı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycanın altı tərəfdaş ali məktəbinin  nümayəndələri iştirak edib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — “Təhsil hamı üçün – maneələri yox edək, qapıları açaq”

## UNEC-də fiziki məhdudiyyətli tələbələrin təhsili ilə bağlı pilot proqramlara start verib

Martın 16-da Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” TEMPUS (ESFIDIP) adlı layihəsi çərçivəsində UNEC-də yaradılan “Əlilliyi olan Tələbələr üçün Mərkəzdə” həyata keçirilməsi nəzərdə tutulan pilot proqlamlarda iştirak edəcək UNEC-in əlilliyi olan tələbələrinin tədris prosesində iştirak edən professor-müəllim heyəti üçün, həmçinin  inzibati işçilərin iştiraki ilə təlim-seminar keçirilib.

UNEC rektoru, professor Ədalər Muradovla görüşdə Əlillər Təşkilatları İttifaqının prezidenti  Davud Rəhimli və vitse-prezidenti Bəybala İbadullayev əlilliyi olan tələbələrin ali təhsilə inteqrasiyasının vacib olması və UNEC tərəfindən bu istiqamətdə zəruri olan bütün tədbirlərin həyata keçirildiyi qeyd edilib. Bu sahədə maarifləndirmə işlərinin aparılması, tələbələrin təhsillərini başa vurduqdan sonra karyera perspektivlərinin inkişaf etdirilməsi müzakirə olunub. Ə.Muradov UNEC-də digər ali təhsil müəssisələri nümayəndələri üçün də analoji təlimlərin təşkil edilməsini təklif edib. Bildirib ki, UNEC bu istiqamətdə regionlarda da təlimlər apara bilər.

Seminar tədbirdə isə əsasən layihə çərçivəsində görülən işlərdən, eləcə də UNEC-də təhsil alan əlilliyi olan tələbələrə universitetin təhsil və xidmətlərindən bərabər hüquqlu istifadə etmələri üçün xidmət və dəstəkdən, onlara göstərilən xidmətlərin yaxşılaşdırılması üçün bütün strukturları ilə, eləcə də professor-müəllim heyəti, tələbələrlə əməkdaşlıq çərçivəsində universitetdə inkluziv təhsil mühitinin yaradılması müzakirə olunub.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-də fiziki məhdudiyyətli tələbələrin təhsili ilə bağlı pilot proqramlara start verib

## Fiziki məhdudiyyətli uşaqlar UNEC-in təhsil imkanları ilə tanış olub

Martın 18-də Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri (UNEC) "Müşviq" Qaradağın Əlil Uşaqlarına Yardım İctimai Birliyi nəzdində fəaliyyət göstərən Günərzi İcma Əsaslı Reabilitasiya Mərkəzində olub.

Mərkəzin uşaqlarına UNEC haqqında ətraflı məlumat verilib. Bildirilib ki, fiziki məhdudiyyətli gənclərin ali təhsilə inteqrasiyası istiqamətində UNEC-də zəruri tədbirlər həyata keçirilir. Bunlardan biri də, Əlilliyi olan tələbələr üçün mərkəzdir. Mərkəz "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" TEMPUS(ESFIDIP) layihəsi çərçivəsində yaradılıb.

Sonra Mərkəzdəki uşaqlar və UNEC-in Yaradıcılıq Mərkəzi üzvlərinin iştirakı ilə Novruz şənliyi qeyd edilib.

Görüşün sonunda UNEC-in THİK-nin təşkilatçılığı ilə təşkil edilən xeyriyyə konsertindən əldə edilən vəsait hesabına Günərzi İcma Əsaslı Reabilitasiya Mərkəzinin üzvlərinə bayram sovqatı paylanıb.

Qeyd edək ki, xeyriyyə konsertində əməkdar artistlər Ədalət Şükürov, Almaz Ələsgərova, Səlim Abbasov, müğənnilər Lamiyyə Novruzova, Yaşar Yusub, Elçin Cəfərov, Vüsal Hacıyev, Əhməd Mustafayev, Elgün Hüseynov və başqaları iştirak edib. Konsertdən əldə edilən vəsaitin bir hissəsini isə UNEC tələbələri Səbail rayonunda yaşayan kimsəsiz qocalara Novruz sovqatı aparıb.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Fiziki məhdudiyyətli uşaqlar UNEC-in təhsil imkanları ilə tanış olub

## UNEC fiziki məhdudiyyətli tələbələrə xidmət sahəsində fəaliyyətini gücləndirir -

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) təhsil alan fiziki məhdudiyyətli tələbələrin universitetin təhsil və xidmətlərindən tam istifadə etmələri məqsədilə seminar keçirilib.

Beynəlxalq əlaqələr departamentinin rəhbəri Anar Kazımov UNEC-də bu sahədə görülən işlərdən və mərkəzin əhəmiyyətindən danışıb.

Tədbirdə Əlillər Təşkilatlar İttifaqının prezidenti Davud Rəhimli və vitse-prezidenti Bəybala İbadullayev fiziki məhdudiyyətli tələbələrin ali təhsilə inteqrasiyasının vacibliyini vurğulayaraq UNEC-in bu istiqamətdə zəruri olan bütün tədbirləri həyata

keçirildiyi  qeyd edib. Eyni zamanda əlilliyin dərki, qanunvericilik, inkluziv təhsil və universal dizayn haqda məlumat verib. Tədbirdə Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyi nümayəndəsi   Rada Abbas  "Əngəlsiz dünya platformu" haqqında geniş məlumat verib.

Seminarda UNEC-də "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" TEMPUS (ESFIDIP) adlı layihəsi çərçivəsində görülən işlərdən danışılıb. UNEC-in "Əlilliyi olan Tələbələr üçün Mərkəz"nin fəaliyyəti və qarşıda duran məsələlər müzakirə olunub.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC fiziki məhdudiyyətli tələbələrə xidmət sahəsində fəaliyyətini gücləndirir

## UNEC-in fiziki məhdudiyyətli tələbələri yay düşərgəsində olub -

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) bir qrup fiziki məhdudiyyətli tələbəsi Şüvəlan qəsəbəsindəki yay istirahət düşərgəsində olub.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunan düşərgənin əsas məqsədi iştirakçıların sağlamlıq, reabilitasiya, istirahət və sosial inteqrasiyasına dəstək verməkdir.

Tələbələr düşərgədə müxtəlif təlimlərdə, intellektual və əyləncəli oyunlarda iştirak ediblər. UNEC tələbələrindən Orxan Adıgözəl, Fərid Əsədov, Eltac Zeynalov və Coşgun Məmmədli düşərgənin fəaliyyətində xüsusi aktivlik göstəriblər.

Qeyd edək ki, UNEC-in nəzdində fəaliyyət göstərən Əlilliyi olan Tələbələr üçün Mərkəz (CSD) bu kateqoriyadan olan tələbələrin cəmiyyət həyatına tam inteqrasiya olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Eləcə də  tələbələrin asudə vaxtını səmərəli təşkil edərək, onların istirahət imkanlarını təmin edir.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-in fiziki məhdudiyyətli tələbələri yay düşərgəsində olub

## UNEC inklyuziv təhsil sahəsində fəaliyyətini genişləndirir -

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə Moskva Dövlət Humanitar-İqtisadiyyat Universiteti arasında əməkdaşlıq Sazişi imzalanıb. Azərbaycan – Rusiya Ali Təhsil Müəssisələrinin Assosiasiyasının "Təhsil, elm və mədəniyyət sahəsində Rusiya – Azərbaycan əməkdaşlığının vəziyyəti və perspektivləri" mövzusunda təşkil etdiyi konfrans çərçivəsində imzalanan saziş iki universitet arasında inklyuziv təhsil sahəsində əməkdaşlığın yaradılmasını nəzərdə tutur.

Saziş UNEC-in əlilliyi olan şəxslərin ali təhsilə cəlb olunması, bu sahədə müvafiq infrastrukturun yaradılması və tədris prosesinin məzmununun uyğunlaşdırılması sahəsində qeyd olunan Rusiya universitetinin təcrübəsindən faydalanması üçün hüquqi baza yaradır. Bu əməkdaşlıq Azərbaycanda əlilliyi olan şəxslərin ali təhsil prosesinə, universitet mühitinə və bununla da, cəmiyyət həyatına inteqrasiyasının gücləndirilməsində UNEC-in daha aktiv iştirakına yardım edəcək.

Məhz inklyuziv ali təhsil sahəsində ixtisaslaşmış Rusiya universiteti ilə həyata keçiriləcək birgə layihələr və ortaq tədris proqramları UNEC-də yeri yaradılmış "Əlilliyi olan tələbələr üçün Mərkəz"in daha səmərəli fəaliyyət göstərməsinə mühüm töhvə verəcək.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC inklyuziv təhsil sahəsində fəaliyyətini genişləndirir

## UNEC-də Beynəlxalq Əlillər Günü qeyd edilib -

Beynəlxalq Əlillər Günü münasibətilə "Təhsil hamı üçün" mövzusunda keçirilən konfransda çıxış edən UNEC-in Tələbələrlə iş üzrə prorektoru, dosent Səadət Qəndilova ölkəmizdə əlillərə göstərilən diqqət və qayğıdan danışıb. UNEC-də də bu kateqoriyadan olan gənclərə qayğı ilə yanaşıldığını deyən S.Qəndilova universitetdə inkluziv təhsilə diqqətin artırıldığını və onlara keyfiyyətli təhsil vermək üçün bütün şəraitin yaradıldığını bildirib.

Beynəlxalq Əlaqələr Departamentinin direktoru Anar Kazımov  UNEC-də təhsil alan əlilliyi olan tələbələri müxtəlif mübadilə proqramlarında fəal iştirak etməyə dəvət edib və bununla bağlı universitet rəhbərliyi tərəfindən onlara bütün imkanların yaradılacağını qeyd edib.

Azərbaycan Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli əlilliyi olan şəxslər üçün bərabər imkanların yaradılmasında vətəndaş cəmiyyətinin rolundan danışıb.

Daha sonra UNEC-də yeni yaradılan  "Əlilliyi olan Tələbələr üçün Mərkəz"in fəaliyyəti haqda məlumat verilib. Mərkəzin koordinatoru Sevinc Məhsimova bildirib ki, qurumun əsas məqsədi fiziki məhdudiyyətli gənclərə qayğı ilə yanaşmaq, onların ali təhsilə cəlb olunması və cəmiyyətə inteqrasiyası istiqamətində maarifləndirmə işlərini aparmaqdır.

Tədbirin sonunda iqtisadçı olmaq arzusunda olan əlilliyi olan hər bir gənc UNEC-də təhsil almağa dəvət edilib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-də Beynəlxalq Əlillər Günü qeyd edilib